# "Reaktiv siyasət"dən "proaktiv liderlik" mərhələsinə keçid

***2024**-cü ildə Bakıda keçirilmiş COP29 konfransı Azərbaycanın beynəlxalq münasibətlər tarixində geosiyasi və sivilizasiya xarakterli dönüş nöqtəsidir. Bu mötəbər qlobal tədbirin uğurla təşkili Azərbaycanın iqlim diplomatiyasının strateji memarlarından birinə çevrildiyini nümayiş etdirdi. Məlum olduğu kimi, iqlim dəyişmələri təkcə ətraf mühitin deyil, qlobal idarəetmənin, enerji təhlükəsizliyinin və sosial ədalətin əsas problemidir.*

Konfransda 196 ölkənin nümayəndəsinin iştirakı, 80 dövlət və hökumət başçısının Bakıya toplaşması və 72 min beynəlxalq iştirakçının bu tədbirə qatılması Azərbaycanı artıq passiv müşahidəçidən fəal qlobal aktora transformasiya etdiyini göstərir. COP29-un iştirakçı sayı və qəbul edilən razılaşmalar baxımından rekordlarla yadda qalması Azərbaycanın diplomatik manevr imkanlarının nə qədər çevik və qlobal çağırışlara adekvat olduğunu sübut etdi. Xüsusilə Bakı gündəliyinin mərkəzində duran və inkişaf etməkdə olan ölkələr üçün nəzərdə tutulan Yaşıl İqlim Fonduna əlavə maliyyə öhdəliklərinin götürülməsi təşəbbüsü beynəlxalq ictimaiyyətdə "planetar ədalət" ideyasının praktiki təzahürü kimi dəyərləndirildi. Bu həm də "iqlim ədaləti" konsepsiyasının yeni mərhələyə qədəm qoyduğunu və Azərbaycanın bu prosesi yalnız dəstəkləyən deyil, eyni zamanda yönləndirən tərəf olduğunu göstərdi. Beləliklə, Azərbaycan ekoloji etikaya və məsuliyyətli qlobal idarəetməyə əsaslanan çoxqütblü dünya düzənində öz mövqeyini daha da möhkəmləndirdi.

COP29-un uğurla nəticələnməsi və Azərbaycanın qlobal iqlim arxitekturasında strateji rolunun təsdiqlənməsi fonunda, cari ilin 29 sentyabr - 3 oktyabr tarixlərində Bakıda keçiriləcək Bakı İqlim Fəaliyyəti Həftəsi bu liderliyin sadəcə simvolik deyil, funksional və davamlı xarakter daşıdığını nümayiş etdirir. Bu, Azərbaycanın iqlim diplomatiyasında regional və qlobal səviyyədə strukturlaşmış iqlim fəaliyyətinin mərkəzinə çevrildiyini sübut edir. Tədbirə dair ilkin konseptual konturlar COP29-un Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və BMT-nin İqlim Dəyişikliyi üzrə Yüksək Səviyyəli Çempionu Nigar Arpadarai tərəfindən ictimaiyyətə təqdim olunub. Nazir Muxtar Babayevin "Azərbaycan regionda iqlim tədbirlərində lider mövqeyini qoruyacaq və yaşıl keçid imkanlarını nümayiş etdirməyə davam edəcək" bəyanatı ekoloji transformasiya prosesinin institusional və strateji manifestidir. Bəyanatda "yaşıl iqtisadiyyat"ın konturları yalnız nəzəri çərçivədə deyil, həm də konkret texnoloji və idarəetmə modelləri fonunda təqdim olunur. Bu da Azərbaycanın "yaşıl keçid" fenomenini sivilizasiyaların gələcəyinə dair normativ baxış kimi dəyərləndirdiyini göstərir.

Bakı İqlim Fəaliyyəti Həftəsi regional elmi-intellektual sintez platforması olaraq çıxış edir. Təşkilatçılar tərəfindən təqdim olunan proqram çərçivəsində 50-dən çox seminar, dəyirmi masa və beynəlxalq konfransın keçirilməsi planlaşdırılıb ki, bu da tədbirin sadəcə statistik göstərici deyil, həm də metodoloji əhatə dairəsi baxımından əhəmiyyət qazandığını sübut edir. Tədbirdə 1,500-dən artıq yerli və xarici nümayəndənin iştirakı gözlənilir. Beləliklə, Bakı İqlim Fəaliyyəti Həftəsi təkcə tematik tədbirlər toplusu yox, həm də elmi bilik, siyasi iradə və sosial enerjinin birləşdiyi strateji sinerji mərkəzi kimi çıxış edəcək. Tədbir vasitəsilə Azərbaycan qlobal idarəetmənin transformasiyasında fəal iştirakçı və konseptual istiqamətverici olduğunu bir daha sübut etmək niyyətindədir. Bu niyyətin arxasında isə milli maraqlarla qlobal məsuliyyətin sintezinə əsaslanan həm texnoloji, həm də fəlsəfi baxımdan sistemli baxış dayanır.




Bakı İqlim Fəaliyyəti Həftəsi proqramında əks olunan əsas tematik istiqamətlər Azərbaycanın strateji ekoloji vizyonunu və intellektual idarəetmə qabiliyyətini əks etdirir. Proqramın əsas mövzu başlıqları olan enerji keçidi və dekarbonizasiya, davamlı kənd təsərrüfatı və su ehtiyatlarının ağıllı idarə olunması, tikinti mühiti, elm, texnologiya və innovasiya, inklüziv iqtisadi artım və yaşıl bacarıqlar, kiçik və orta bizneslərin (KOB) ekoloji transformasiyası, gənclərin iqlim sahəsində təşəbbüskarlığı və startap ekosistemlərinin inkişafı, iqlimə uyğunlaşma və struktur dayanıqlılıq həm universal çağırışlara cavab verir, həm də milli maraqların ekoloji təzahürlərini nəzərə alır. Burada məqsəd sadəcə resursların rasionallaşdırılması deyil, həm də ekoloji ədalət və intergenerativ məsuliyyət (nəsillərarası məsuliyyət) prinsipinə əsaslanan yeni idarəetmə paradiqmasının formalaşdırılmasıdır.

Enerji keçidi məsələsi Azərbaycanın "yaşıl geosiyasət"ində tutduğu avanqard mövqeyin əsas sütunlarından biridir. Hazırda ölkənin elektrik enerjisi istehsalının təxminən 20 faizi bərpaolunan enerji mənbələri hesabına təmin olunur. Bu göstəricinin 2030-cu ilədək 30 faizə yüksəldilməsi Azərbaycanın Paris Sazişi və digər beynəlxalq öhdəliklər qarşısında olan məsuliyyətini praktiki fəaliyyətlə birləşdirmək əzmini nümayiş etdirir. Xüsusi olaraq qeyd edilməlidir ki, "Xəzər dənizində külək" layihəsi çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə birlikdə inşa olunan 230 MVt gücündəki külək stansiyası uğurlu enerji diplomatiyasının təzahürüdür. Layihə ekoloji suverenlik və enerji təhlükəsizliyi kimi anlayışların inteqrasiyasına yönəlmiş multidissiplinar yanaşmanın bariz nümunəsidir.

Azərbaycanın ekoloji strategiyasında su ehtiyatlarının rasional idarə olunması da əsas prioritetlərdəndir. Bu sahədə iqlim risklərinə qarşı artan dayanıqlılıq və adaptasiya bacarıqları ölkənin ərzaq təhlükəsizliyi və sosial stabilliklə bağlı uzunmüddətli planlarında mərkəzi yer tutur. Rəsmi statistikaya əsasən son iki ildə ölkə ərazisində 100-dən çox yeni su anbarı və müasir irriqasiya sistemləri istismara verilib ki, bu da Azərbaycanın hidroloji davamlılıq modelinin yenidən qurulmasına yönəlib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Yüksək Səviyyəli Çempionu Nigar Arpadarainin fikirləri isə iqlim siyasətində demokratik iştirakçılıq prinsipinin əhəmiyyətini ön plana çıxarır. Onun vurğuladığı kimi, ədalətli və təhlükəsiz iqlim keçidi yalnız dövlətlərin institusional qərarları ilə deyil, ictimai konsensus və xüsusilə gənclərin fəal iştirakına əsaslanmalıdır. Bakı ilə London və Rio-de-Janeyro arasında qurulan iqlim tərəfdaşlığı çərçivəsində artıq konkret layihələrin icrasına başlanılması və texnoloji transfer mexanizmlərinin işə düşməsi beynəlxalq əməkdaşlığın yalnız deklarativ deyil, həm də funksional xarakter daşıdığını sübut edir. Sözsüz ki, bu cür çoxtərəfli əməkdaşlıq Azərbaycanın COP30-un keçiriləcəyi Braziliya ilə əlaqələrinin güclənməsi və Cənubi Qafqaz regionunun "yaşıl diplomatiya" xəritəsində strateji mövqeyə çevrilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu ekoloji siyasət yalnız təbii sərvətlərin qorunması deyil, həm də qlobal tərəfdaşlıq fəlsəfəsinin, texnoloji transformasiyanın və humanist məsuliyyətin təcəssümüdür.

Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində keçiriləcək tədbirlər sırasında strateji əhəmiyyət daşıyan, gələcəyə yönəlik transformativ potensiala malik forumlardan biri də "Yaşıl İqtisadiyyat və Gənclər Forumu"dur. Forum əslində Azərbaycanın ekoloji transformasiya konsepsiyasında nəsillərarası və inteqral inkişaf modelinin vacib komponentidir. Forum çərçivəsində 200-dən artıq startap qurucusu, gənc ixtiraçı və iqlim texnologiyaları sahəsində çalışan təşəbbüskar ətraf mühitə təsirin minimallaşdırılması, "yaşıl biznes" modelləri və süni intellektə əsaslanan iqlim adaptasiyası texnologiyaları barədə təqdimatlarla çıxış edəcək. Bu, həm də postsənaye cəmiyyətinin çağırışlarına cavab verən "dövlət-cəmiyyət-bazar" sinergiyasının formalaşması üçün yeni təməldir.

Forumda keçiriləcək "İqlim Texnologiyaları Sərgisi" isə Azərbaycanda ilk dəfə olaraq ekoinnovasiya və texnoloji diplomatiyanın fiziki məkanda təzahürü olacaq. Burada 30-dan artıq ölkədən iqlim texnologiyaları üzrə ixtisaslaşmış qabaqcıl şirkətlər və beynəlxalq institutlar iştirak edəcək. Sərgi, eyni zamanda texnologiya transferi, bilik diplomatiyası və ekoloji ticarət əməkdaşlığının qlobal formatda simvolik başlanğıcıdır. Bu sərgi vasitəsilə ölkəmiz iqlim texnologiyalarının beynəlxalq dövriyyəsinə inteqrasiya etməklə bərabər, həm də regional innovasiya mərkəzi statusunu gücləndirmək niyyətindədir.

Bütün bu təşəbbüslər fonunda aydın olur ki, Azərbaycan sadəcə beynəlxalq iqlim tədbirlərinə ev sahibliyi edən formal platforma rolu oynamır, normativ bazaların təşəbbüskarı və institusional dəyişikliklərin katalizatoru kimi də çıxış edir. Azərbaycanın COP29 çərçivəsində ortaya qoyduğu yanaşma, xüsusilə inkişaf etməkdə olan ölkələr üçün Yaşıl İqlim Fonduna yeni maliyyə öhdəliklərinin təşviqi və "ədalətli keçid" prinsipinin institusional çərçivəyə salınması cəhdləri onun qlobal iqlim idarəçiliyində prinsipial və məsuliyyətli aktor olduğunu təsdiqlədi.

Bakı İqlim Fəaliyyəti Həftəsi Azərbaycanın post-COP29 mərhələsində yeni bir diskurs yaratmaq və həmin diskursu dayanıqlı sistemə çevirmək yolunda atdığı növbəti strateji addım kimi qiymətləndirilməlidir. Burada əsas məqsəd sadəcə hadisələrə reaksiya verməK deyil, onları qabaqlamaq, yönləndirmək və idarə etməkdir. Bu, "reaktiv siyasət"dən "proaktiv liderlik" mərhələsinə keçidin parlaq nümunəsidir.

Azərbaycan həm daxili iqlim idarəçiliyini rasional strategiyalar üzərində qurur, həm də qlobal sistemdə "etibarlı tərəfdaş" statusunu daha da möhkəmləndirir. Bakı isə artıq "yaşıl diplomatiya"nın, yüksək texnoloji iqlim həllərinin və sosial-eko innovasiyaların inteqrasiya olunduğu strateji məkana çevrilib.

**Tacir SADIQOV,**
**"Respublika".**



Respublika .- 2025.- 15 may(№99).- S.6.